ELMİ TƏDQİQAT Beynəlxalq onlayn elmi jurnal. İmpakt Faktor: 1.172. 2024 / Cild: 4 Sayı: 1 / 7-11
SCIENTIFIC RESEARCH International online scientific journal. Impact Factor: 1.172. 2024 / Volume: 4 Issue: 1 / 7-11 e-ISSN: 2789-6919

**HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR**

**HUMANITIES AND SOCIAL SCIENCES**

DOI: https://doi.org/10.36719/2789-6919/29/7-11

**İradə Kərimova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
irade.kerimova.81@mail.ru
Orcid ID:0000-0002-8057-8333

# TÜRKMƏNŞƏLİ TOPONİMLƏRİN ÜMUMTÜRK AREALLARI

**Xülasə**

Məqalədə Danzik, Baydar və Çullu//Çul//Çol oykonimlərinin leksik-semantik, etimoloji izahı araşdırılmışdır. Danzik kəndi qədim oğuz yurdu olmuşdur. Görkəmli alim İ.Həbibbəyli Danzik sözünün etimologiyasını izah edərkən bu sözün "Kitabi-Dədə Qorqud" dastanında işlənmiş "dansux" sözündən olub, "erkən dan çıxan yer" mənasında işləndiyini bildirmişdir. Həmin kəndin adı XX əsrin 60-cı illərindən sonra yeniləşdirilərək etimoloji mənasına uyğun şəkildə Tanyeri adlandırılmışdır. İ.Həbibbəyli bir başqa əsərində isə ***dansux*** sözünün "dan sökülən yer" mənasında işləndiyini, yerləşdiyi coğrafi mövqeyə uyğun Arpaçayın sahilində uca dağların üzərində qərar tutmuş Danzik kəndində dan yerinin erkən söküldüyünü, günəşin tez doğulduğundan bəhs etmişdir. A.İmanlı isə Danzik toponimini etnotoponim hesab edərək I komponent olan "dan"-ı qədim türk tayfalarından biri olan *tonlarla* bağlamışdır. Müəllif qıpçaqların tərkibində Azərbaycan gəlmiş tonların bir çox toponimlərdə öz adlarını əbədiləşdirdiklərini qeyd etmişdir. Əslində, Danzik kəndi elə bir coğrafi mövqedə yerləşmişdir ki, şərq və qərb tərəfdən cənuba doğru uzanan dağ silsiləsi ilə əhatə edildiyindən kəndə günəş dağla səmanın kəsişmə nöqtəsindən qəflətən çıxır, fikrimizcə Danzik "dan yeri sökülən yer" anlamını bildirmişdir.

E.Nuriyev Baydarlı toponiminin yayılma arealını araşdırarkən bu oykonimin yaranması haqqında iki fikir irəli sürmüşdür. Onlardan biri onun şəxs adı ilə, digəri isə tayfa adı ilə bağlı olmasıdır. R.Əliyeva Baydarlı toponiminin etimologiyasını izah edərkən yazır: "Baydar – monqol döyüşçüsüdür. XIII əsrdə monqol xanlarının sarayında olmuş Dominikan keşişi, Astselin bu sözü "voevoda" kimi tərcümə etmişdir".

Azərbaycan xalqının dili və mənşəyinin formalaşmasında çullu tayfasının böyük rolu olmuşdur. Çul etnoniminin iştirakı ilə formalaşmış coğrafi adlara təkcə Azərbaycanda deyil, Qafqazda və türk xalqlarının yaşadığı digər ərazilərdə də rast gəlmək mümkündür. Q.Qeybullayev Çullu//Çul//Çol etnotoponimini türk mənşəli "çullu" etnoniminin əsasında yarandığını, Q.Məşədiyev isə V.Q.Yeqorova əsaslanaraq Çol/Çulu türk mənşəli söz olub çuvaş dilində "daş", "qaya", "dərə" mənalarında işləndiyini yazmışdır. N.Əsgərov Çol-Çul-Sul oniminin "su", "çay" kimi izahının daha elmi olduğunu bildirmişdir.

***Açar sözlər:*** *paleotoponimiya, toponim, areal, oykonim, oronim, coğrafi, komponent*

**Irada Karimova**
Azerbaijan State Pedagogical University
Doctor of Philosophy in Philology
irade.kerimova.81@mail.ru
Orcid ID:0000-0002-8057-8333

## National turkish areas of toponyms of turkish origin

### Abstract

The article deals with the lexical-semantic, etymological explanation of the oikonyms Danzik, Baydar and Cull//Cullu. The village of Danzik was the ancient homeland of the Oghuz. Prominent scientist I. Habibbeyli, explaining the etymology of the word Danzik, pointed out that this word comes from the word "dansuh", used in the epos "Kitabi-Dede Gorgud", and means "a place that arose from ancient times." The name of this village was renewed after the 60s of the 20th century and, according to the etymological meaning, became known as Tanieri. In another work by I. Habibbeyli, it is mentioned that the word “dansukh” is used in the meaning of a place where there is an early dawn, and in the village of Danzik, which is located on high mountains on the banks of the Arpachay, because of its geographical position, it was mentioned that the sun rose early. A.Imanli considered the toponym Danzik to be an ethnotoponym and connected the I component “dan” with the Tans, one of the ancient Turkic tribes. The author notes that the Tans, who came to Azerbaijan as part of the Kypchaks, immortalized their names in many toponyms. In fact, the village of Danzik is located in such a geographical position that the sun rises suddenly from the point of intersection of mountain and sky, as it is surrounded by a mountain range that stretches from east and west to south. Thus, in our opinion, Danzik expressed the meaning of "the place where the earth is removed".

E.Nuriev, exploring the distribution area of the Baydarly toponym, put forward two assumptions about the origin of this oikonym. One of them is that it is associated with a personal name, and the other is that it is associated with a generic name. Commenting on the etymology of the Baidarly toponym, R.Aliyeva writes: “Baidar is a Mongol warrior. Atselin, a Dominican priest who was at the court of the Mongol khans in the 13th century, translated this word as "voivode."

The Chullu tribe had a great role in the formation of the language and origin of the Azerbaijani people. Geographical names formed with the participation of the Chul ethnonym can be found not only in Azerbaijan, but also in the Caucasus and other areas inhabited by Turkic peoples. G.Geibullayev wrote that the ethnotoponym Chullu//Chul//Chol was formed on the basis of the Turkic ethnonym "chullu", while G. Mashadiyev based on V.G. Yegor wrote that Chol/Chulu is a word of Turkish origin and is used in the Chuvash language to mean "stone", "rock", "valley". N.Asgarov stated that the explanation of the name Chol-Chul-Sul as "water", "river" is more scientific.

***Keywords:*** *poletoponym, toponym, areal, oikonym, oronym, geographical, component*

### Giriş

Toponimlərin tədqiqi bütün dövrlərdə dilçiliyin qarşısında duran ən aktual məsələlərdən biri olmuşdur. Çünki toponimlər mənsub olduğu xalqın bütün cəhətlərini, etnoqrafiyasını, tarixini, inam və etiqatlarını, tarixini və s. əks etdirməklə həmin xalq haqqında doğru həqiqətləri ehtiva edən mənbə rolunu oynamaqdadır. Torpaqlarımıza qarşı ərazi iddiasında olan mənfur düşmənlərimizə layiqli və əsaslandırılmış cavab vermək məqsədilə həmin mənbələri təkrar-təkrar tədqiq etməli, bütün dünyaya tanıtmalıyıq.

Annotasiya. Azərbaycan paleotoponimiyası qədim türk leksik-semantik elementləri ilə zəngindir. Belə leksik vahidlərin müxtəlif növ obyekt adlarının tərkibində mühafizə etdikləri arxaik məna çalarlarını isə həm qədim türk abidələri və qohum türk dilləri materialları əsasında, həm də coğrafi obyektin özünün bilavasitə müəyyən səciyyəvi cəhətlərini nəzərə almaqla

müəyyənləşdirmək, bərpa etmək mümkündür. Uzaq keçmişdə baş vermiş etnik proseslər, hadisələr öz izlərini qabarıq şəkildə türkdilli xalqların toponimiyasında da saxlamışdır. Ərazidəki türk mənşəli toponimlərin böyük bir qismini ayrı-ayrı tayfa və tayfa birləşmələrinin adları təşkil edir ki, bu da həmin ərazidə məskunlaşmış əhalinin mənşəyi, etnik tərkibi haqqında tutarlı faktları özündə əks etdirir. Türk xalqlarının tarixən yaşadıqları ərazilərin dəqiqləşdirilməsində, etnik tərkibinin müəyyənləşdirilməsin də toponimləri areallar üzrə tədqiq etmək daha əhəmiyyətli və məqsədəuyğundur. Məqalədə də, Azərbaycanın qədim yaşayış məskənlərindən biri olan Danzik, Baydar və Çull//Çullu oykonimlərinin leksik-semantik etimoloji izahı verilmişdir. Həmin toponimlərin türkmənşəli olması ilə ərazinin də qədim türklərə mənsub olduğu qənaətinə gəlmək olur.

Metod. Məqaləni hazırlayarkən əsasən, tarixi-müqayisəli və müqayisəli-qarşılaşdırma metodlarından istifadə olunmuşdur.

Naxçıvan MR-nın Şərur rayonunda Arpaçayın sahilində yerləşən qədim yaşayış məskənlərindən biri də ***Danzik*** oykonimidir. Kəndin əhalisi XX əsrin 70-ci illərində Arpaçay su anbarının tikintisi ilə əlaqədər olaraq Danyeri yaşayış məntəqəsinə köçürülmüşdür. Danzik kəndi qədim oğuz yurdu olmuşdur. Bu kəndin Qarağac piri adlanan sahəsində Qara Qasımın qəbiristanlığı adlanan yerdə oğuz qəbirləri mövcuddur (Həbibbəyli, Əlizadə, Həsənov, 1996: 10). Naxçıvan qəzasının Naxçıvan nahiyəsində Qaraçuq, Qarabağ nahiyəsində Səng, Sükar, Zoq, Bazarçay nahiyəsində Siqad, Vedi nahiyəsində Çiqin, Çiqindər, Çaqlı, Gənzək, Abaran nahiyəsində Səkni, Əlincə, Ağsaq, Şorlut nahiyəsində Gənzək, Əlincə nahiyəsində Əlincə, Əlincəqala, Böyük Ərəfsaq, Kiçik Ərəfsaq, Sisiyan nahiyəsində Sənkar, Şəki, Ərəfsəcik (Ərəfsaq), Sisəcan, Pişək (Kisək yazılışı da var), Məzrə nahiyəsində Sanqur, Dərələyəz nahiyəsində iki Gənzək kəndi, Caqazur, Danzik, Göyçə nahiyəsində Kənzək, Abaran nahiyəsində Şiqşaq və Gənzək belə adlardan olub tarixi sübutların canlı daşıyıcılarıdır (Bayramov, 1996: 2).

Danzik toponiminin etimologiyasına dair dilçilik ədəbiyyatında müxtəlif mülahizələrə rast gəmək olar. A.İmanlı Danzik toponimini etnotoponim hesab edərək I komponent olan "dan"-ı qədim türk tayfalarından biri olan tanlarla bağlamışdır. Müəllif qıpçaqların tərkibində Azərbaycana gəlmiş tanların bir çox toponimlərdə öz adlarını əbədiləşdirdiklərini qeyd etmişdir. O, Azərbaycandakı Tanğıt, Tanaşen, Danzik, Danşor, Danaçı və s. məhz bu etnonimin adı ilə bağlı olduğunu bildirmişdir (İmanlı, 2008: 13). Müəllif tancıq//dancıq (yəni kiçik tan, tanların kiçik bir hissəsi) formasında olan sözün fonetik dəyişiklik nəticəsində *dancik*, s-z səsəvəzlənməsi sayəsində Danzik şəklinə düşdüyünü, tan//dan sözünün digər türk dillərindən fərqli olaraq Azərbaycan dilində sözlərin cingiltili samitlərlə tələffüzü və yazılışı üstünlük təşkil etdiyini bildirmişdir (İmanlı, 2010: 22).

Görkəmli alim İ.Həbibbəyli Danzik sözünün etimologiyasını izah edərkən bu sözün "Kitabi-Dədə Qorqud" dastanında işlənmiş "dansux" sözündən olub, "erkən dan çıxan yer" mənasında işləndiyini bildirmişdir. Müəllif yazır ki, XVI əsrin əvvəllərində Şərur mahalından 10 kəndin əhalisinin bir hissəsi Türkiyəyə köçürülmüşdür. Bu kəndlərdən biri olan Danzik kəndi Ərzincan vilayətində məskunlaşdırılmış, burada Danzik adlı kənd salmışlar. Həmin kəndin adı XX əsrin 60-cı illərindən sonra yeniləşdirilərək etimoloji mənasına uyğun şəkildə Tanyeri adlandırılmışdır (Həbibbəyli, Əlizadə, Həsənov, 1996: 45). İ.Həbibbəyli bir başqa əsərində ***dansux*** sözünün "dan sökülən yer mənasında işləndiyini, yerləşdiyi coğrafi mövqeyə görə Arpaçayın sahilində uca dağların üzərində qərar tutmuş Danzik kəndində dan yerinin erkən söküldüyünü, günəşin tez doğulduğundan bəhs etmişdir (Həbibbəyli, 1998: 10).

"Kitabi-Dədə Qorqud" dastanında bu sözün üç yerdə işləndiyini görmək mümkündür. Məsələn, "Bəzirganlar dəxi gecə-gündüz yola girdilər; İstanbula gəldilər dan-danışıx ilə yəxşi ərməğanlar oldılar"; "On altı yıldır ki, Oğuz içindən getmiş idik". "Dan-danışsux kafər malın Oğuz bəglərinə gətirür idik" (Zeynalov, Əlizadə, 1988: 52-53). Əslində, Danzik kəndi elə bir coğrafi mövqedə yerləşir ki, şərq və qərb tərəfdən cənuba doğru uzanan dağ silsiləsi ilə əhatə edildiyindən kəndə günəş dağla səmanın kəsişmə nöqtəsindən qəflətən çıxır. Beləliklə, fikrimizcə Danzik yerləşdiyi coğrafi mövqeyə əsasən "dan yeri sökülən yer" anlamını bildirmişdir.

**Baydar** – "Baydar" apelyativi əsasında formalaşmış toponimlər Qafqazda daha geniş yayılmışdır. Azərbaycanın Qax rayonunda Baydarlı oykonimi mövcuddur. E.Nuriyev Baydarlı toponiminin yayılma arealını araşdırdıqda görürük ki, ***baydarlı*** etnonimdir. Bu etnonim XVII əsrdə monqolların və Krım tatarlarının içərisində də məlum imiş. Müəllif Baydarlı oykoniminin yaranması haqqında iki fikir irəli sürmüşdür. Onlardan biri onun şəxs adı ilə, digəri isə tayfa adı ilə bağlı olmasıdır. Baydar bir şəxs adı kimi 1273-cü ildə monqolların içərisində dəstə başçısı (Əmir Baydar) kimi çəkilir (Nuriyeva, 1999: 42). R.Əliyeva Baydarlı toponiminin etimologiyasını şərh edərkən yazır: "Baydar – monqol döyüşçüsüdür. XIII əsrdə monqol xanlarının sarayında olmuş Dominikan keşişi Astselin bu sözü "voevoda" kimi tərcümə etmişdir" (Əliyeva, 1999: 134). Baydar etnotoponiminin areallarına Gürcüstan, Qərbi Azərbaycan (indiki Ermənistan), Krım, Başqırdıstan Respublikalarında da rast gəlmək olar. A.Bayramov Ermənistanın Amasiya rayonunda Baytaroğlu//Baydaroğlu dərəsi haqqında məlumat verərkən yazır ki, erməni mənbələrində Amasiya rayonu ərazisində İlli (Elli) dərəsindəki xaraba kənd yerinin adı kimi qeyd edilir. Bu ərazidə olan Baytar kəndindən 4 km cənubdadır (Bayramov, 1996: 157). Şimali Qafqazda Ter vilayətinin ərazisində yerləşən dağlardan biri Baydara adlanır. "Qafqaz təqvimi"nin 1878-ci il üçün buraxılışında belə bir məlumat verilir: "Baydara dəniz səviyyəsindən 7.782 fut yüksəklikdə yerləşir və Kodor yüksəkliyindən sonra Qafqazda insanın məskun olduğu yüksəklikdir" (Əsgərov, 2005: 68). Gürcüstan Respublikasının Borçalı mahalının Marneuli rayonunda hazırda Baydar oykonimi mövcuddur. Baydar oykonimi Başqırdıstan Respublikasının Kama yaxınlığındakı, Redikor adlanan Çerden sovetliyində qeydə alınmışdır. 1579-cu il aid tarixi sənədlərdə bu onimə həm də Baydarov soyadı kimi də rast gəlmək olur (Əsgərov, 2005: 110). Baydar toponiminin arealına Krım ərazisində də rast gəlmək mümkündür. M.Nuriyeva bu toponimin Krım tatarlarının dilində Baydar-Ova şəklində işləndiyini yazır (Nuriyeva, 1999: 159).

**Çullu//Çul//Çol.** Azərbaycan xalqının dili və mənşəyinin formalaşmasında *çullu* tayfasının böyük rolu olmuşdur. Çullular Çol, Çul da adlanırlar. Çul etnoniminin iştirakı ilə formalaşmış coğrafi adlara təkcə Azərbaycanda deyil, Qafqazda və türk xalqlarının yaşadığı digər ərazilərdə də rast gəlmək mümkündür. Tədqiqatçılar Çul toponimi haqqında müxtəlif fikirlər söyləmişlər. Q.Qeybullayev Çullu//Çul//Çol etnotoponimini türk mənşəli "çullu" etnoniminin əsasında yarandığını qeyd etmişdir. Müəllif bu haqda yazır: "Eranın ilk əsrlərində Albaniyanın şimal-şərqində Dərbənddən cənubda bir şəhər Çol//Çul adı ilə məlumdur. Bu toponimi Qafqazdilli hesab edirlər. Lakin biz bu adın Albaniyada yaşamış türk mənşəli Çul tayfasının adını əks etdirdiyini və etnonimin indiyədək Çullu kəndlərinin adlarında saxladığını demişik" (Qeybullayev, 1994: 202). N.A.Baskakov qeyd edir ki, Çol, Cul Xəzər xaqanlığının adıdır. V.Qukasyan da Çol, Çul oniminin Xəzər xaqanlığının adı olduğunu və bu sözun çuvaş dilində "dərə", "qaya" mənalarında işləndiyini bildirmişdir (Voroshil, 1986: 20-57). Çul//Çol toponimi haqqında toponimik araşdırma aparmış Ç.Kazımov yazır ki, Çul//Çol eramızın V əsrində yazılı abidələrdə qeydə alınmışdır. V əsrin erməni tarixçiləri Egişe Fovstos Buzand və Aqofongel türk tayfalarının şimaldan Azərbaycana gəldiyini qeyd edərək, Çol//Çul mağarasının adını tez-tez çəkirlər. K.M.Trevera istinad edən müəllif yazır ki, maskutlar Xəzər dənizinin şimal-qərb sahilində, Samurun mənbəyindən cənubda V əsrdə Çor, Çul adlanan ərazidə məskən salmışlar. Müəllif daha sonra V.V.Bertolda istinad edərək bəzi ərəb mənbələrində rast gəlinən Sul oykonimini Çul kimi oxumağın düzgün olduğunu qeyd edir. Ç.Kazımov yazır ki, "sad" ərəb hərfi "ç" səsinin əvəzlənməsi kimidir. Q.Məşədiyev V.Q.Yeqorova əsaslanaraq yazır ki, Çol-Çul türk mənşəli söz olub çuvaş dilində "daş", "qaya", "dərə" mənasında işlənir ki, bu da həmin oykonimin coğrafi landşaftına uyğundur. Bizcə, çul//çol sözü ilə əlaqədar olub, "çöllük" mənasını verir.

Çol//Çul onimini etnonim kimi araşdıran H.Mirzəyev yazır ki, Çul Dərələyəzdə kənd adıdır. Tarixi mənbələrdən aydın olur ki, türk tayfasının adını daşıyan Cul da qədimdən Azərbaycanlı kəndi olmuşdur (Mirzəyev, 2004: 190). R.Eyvazova Əfqanıstan ərazisində Çul//Çol toponiminin arealları haqqında məlumat verərkən yazır: "Çol- kənd- Pərvanda; Şor//Şur kənd – Qəndaharda. Biz Əfqanıstan ərazisindəki Çol, Çar, Sul, Sur coğrafi adlarını və "sal", "sar" tərlibli toponimləri eyni semantik mənalı, müxtəlif fonetik variantlı türk mənşəli adlar sayırıq" (Eyvazova, 1995: 77).

N.Məmmədov tədqiqatlarında respublikamızın ərazisində Çullu dağ, Çullu dərə və Çullu təpə oronimləri haqqında məlumat verərkən yazır ki, adları çəkilən oronimlər çullu etnoniminin adını daşıyır. Respublikamızın ərazisində b.e. ilk illərindən etibarən bir sıra Azərbaycandilli tayfaların (kəngər, tərtər, qarqar, çiraq, gəncə) içərisində cul tayfası da olmuşdur. Keçən əsrdə Qafqazda çullu adlı beş toponim mövcud olmuşdur. N.Əsgərov Çol-Çul-Sul oniminin "su", "çay" kimi izahının daha elmi olduğunu bildirmişdir (Əsgərov, 2005: 311). Çol//Çul//Çullu toponim və hidronimlərinin areallarına Gürcüstanda – Çullu k. Alının yeri, Çolman, Çolyan k., Sul dərə; Ermənistanda – Çulabad k., Çul k., Çullu k., Cul k.; Tatarıstanda – Çulım ideli, Çulman çayı, Çullu k.; Türkiyədə – Çullu k., Cənubi Azərbaycanda – Çölabad k.; Özbəkistanda – Çulobod k., Çulvotir dağı; Dağlıq Altayda – Çuluş çayı və Tuva ərazisində – Çulça çayı formalarında rast gəlinir.

## Nəticə

Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, bu ərazilərin aborigen sakinləri türkdilli etnoslar olmuşlar, ona görə də bu regionda mövcud olan yer-yurd adları, əsasən türkmənşəli toponimlərdən ibarətdir.

## Ədəbiyyat

1. Həbibbəyli, İ.,Əlizadə, M., Həsənov, K. (1996). Portret cizgiləri. Bakı: BDU.
2. Bayramov, A. (1996). Qədim Oğuz ellərinin – Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin yer-yurd adları (toponimləri). Bakı: Adiloğlu, 240 s.
3. İmanlı, A. (2008). Şərur və İğdır bölgələrinin yer adları (oykonimlər). Naxçıvan: Qeyrət nəşriyyatı, 160 s.
4. İmanlı, A. (2010). Şərur və İğdır oykonimlərinin linqvistik xüsusiyyətləri. F.e.d. alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Naxçıvan, 53 s.
5. Həbibbəyli, İ. (1998). Biblioqrafiya. Bakı: Elm, 76 s.
6. Zeynalov, F., Əlizadə, S. (1988). "Kitabi-Dədə Qorqud". Bakı, 268 s.
7. Nuriyeva, M. (1999). Qərbdən Şərqə ulu türk yurd adlarının dəyişdirilməsi tarixindən. Bakı, 244 s.
8. Əliyeva, R. (1999). Azərbaycan toponimiyasında monqol elementləri. Tədqiqlər. AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu. Bakı: Elm, № 5, s.129-135.
9. Əsgərov, N. (2005). Areal türk onomastik vahidlərinin linqvistik xüsusiyyətləri. Bakı: Elm, 485 s.
10. Qeybullayev, Q. (1994). Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 248 s.
11. Voroshil, G., Aslanov, V. (1986). Issledovaniya po istoryy azerbaydzhanskogo yazika dopismennogo perioda. Baku: Elm, 228 s.
12. Məşədiyev, Q. (1998). Etnonimlərdən düzələn toponimlər. AOP, II c, s.112-113.
13. Mirzəyev, H. (2004). Qərbi Azərbaycanın Dərələyəz mahalı. I c. Bakı: Elm, 854 s.
14. Eyvazova, R. (1995). Əfqanıstanda türk mənşəli toponimlər. Bakı: Elm, 243 s.

Göndərilib: 01.12.2023 Qəbul edilib: 19.01.2024